# İMADƏDDİN NƏSİMİNİN ƏDƏBİ YARADICILIĞINDA VƏ FƏLSƏFİ DÜNYAGÖRÜŞÜNDƏ EKOLOJİ MAHİYYƏTLİ FİKİRLƏR

## (Seçilmiş əsərləri əsasında:I-II cild, Bakı, 2004)



*Yusif DİRİLİ,*
*Ətraf mühit üzrə tədqiqatçı*

Geniş və dərin təfəkkürə malik, XIII-XIV əsr Azərbaycanın klassik Cahanşümul şairi İmadəddin Nəsimi 700 ilə yaxındır ki, qoca Şərqin fəlsəfi fikir tarixində və ədəbi sənət aləmində özünün layiqli yerini tutub. Yaxın Şərqdə daha çox mökəm iradə, sarsılmaz güc rəmzi, ideya mücahidi və əqidə uğrunda mübariz kimi yüz illərdir yaddaşlara hopmuş Azərbaycan şairi İ.Nəsiminin üstün keyfiyyətlərini xarakterizə edən akademik Həmid Araslı yazırdı: “Şərq xalqları tarixində öz məsləki uğrunda ölümə gedən, ölüm ayağında belə fikrindən dönməyən dəmir iradəli şəxsiyyətlər olmuşdur. Xəlifə cəlladlarının qarşısında mərdanə dayanıb rənginin saralmasını düşmən görməsin deyə üzünü qanı ilə qızardan Babək, “Ənəlhəqq” dediyi üçün X əsrdə Bağdad şəhərində dara çəkilən Məsur Həllac, dindarların kafir adlandırıb neft tökərək yandırdıqları Eynül-Qüzzat, Alınca qalasında Teymurləngin oğlu Miranşahın əmri ilə dara çəkilən, cəsədi at quyruğunda sürüdülən Fəzlullah Nəimi belə mərd insanlardandır. Lakin bunlardan heç birinin edamı böyük ideya maücahidi İmadəddin Nəsiminin ölümü qədər faciəli və əzablı olmamışdır. Məhz buna görə də beş əsrdən artıdır ki, onun şərəfli adı Yaxın Şərqdə mərdlik, fədakarlıq, sədaqət və mətin iradə rəmzi kimi hörmətlə çəkilir, haqqında rəvayətlər və bədii əsərlər yaranır.” Heç də təsadüfi deyildir ki, Nəsimidən üç əsr sonra yaşamış Sarı Aşıq bayatılarının birində deyirdi:

Soy iləndi,
Şahmar da soy ilandı.
Nəsimitək bu aşıq,
Yolunda soyulandı.

Nə xoş ki, indiyədək bu bayatı bir zərb-məsəl kimi yaşamaqda və deyilməkdədir. Sirr deyildir ki, Nəsimi yaradıcılığı bütövlükdə özündən sonrakı ədəbiyyat və fəlsəfi fikir tarixinə çox ciddi təsir göstərmişdir. Şair-filosofun yardaıcılığının əhatəli tədqiqi və dünya elmi-ədəbi ictimaiyyətinə daha geniş tanıdılması üçün cari ilin ölkə başçısı tərəfindən “Nəsimi İli” elan edilməsi olduqca mühüm əhəmiyyət kəsb edir.

Bu baxımdan apardığımız araşdırmanın İ.Nəsimi irsinə xırda bir töhfə kimi qəbul ediləcəyini düşünürük. Bütünlüklə, Nəsimi yaradıcılığına ekoloji yöndən indiyədək nə qədərvə hansı səviyyədə araşdırıldığının fərqinə varmadan, biz də belə bir cəhdə çalışdıq. Beləliklə, həmin məqaləni nəzərinizə təqdim edir, dəyərləndirməni sizdən gözləyirik, dəyərli dostlar!

Məlumdur ki, dünyagörüşü cəhətdən hürufi-panteist olan İmadəddin NəsimiAllahla təbiəti eyniləşdirmiş, Allahın insanda və təbiət cisimlərində təcəlləsi ideyasını təbliğ etmişdir. Nəsimiyə görə, ruh cansız təbiətdən canlı təbiətə (bitkiyə, heyvana, insana) doğru inkişaf edir (Araslı, 1972 s.27). O, gerçəkdən insanı təkamülün son mərhələsi hesab edir, bütün şerlərində insanı təbiəti və həyat gözəlliklərini duymağa, ondan zövq almağa çağırırdı. Deməli, Nəsiminin poeziyasında ətraf mühitin qorunması təbliğ olunmuş, təbiətə məhəbbət və qayğı hissləri aşılanmışdır.

### (TƏHLİL)

Qeyd etdiyimiz kimi, İ.Nəsimi təbiətə hürufilik təlimi əsasında yanaşır və canlı təbiətin özündən yarandığı fikrini irəli sürür. XIX əsrdə Nəsiminin bu ideyası elmi əsaslarla sübut olundu. İnsana ali varlıq kimi baxan şair, panteizm cərəyanının qəbul etdiyi kimi ruhun cəmadət, nəbatət və heyvanatdan keçərək insana doğru inkşaf etdiyi fiktində idi (Yenə orada, s.28).

Çün xakdan eylər səfər mədən nəbat olur şəcər
Rovşen görür əhli-nəzər kol tömeyi-heyvan gəlir.
Çün tömeyi- heyvan olur, oda ki, insü can olur
İnsana vasil olmağa bi dəstü pa pərran gəlir.

Nəsimiyə görə, insan öldükdə ruhu çıxır, cəsədi torpağa qarışır, bitki şəklində həyata qayıdır. Torpaqdan mədən, mədəndən nəbatət, nəbatətdən heyvanat yaranır. Ümumşərq fəlsəfəsinin əsasını təşkil edən bu cür yanaşma meyarı qədim hind fəlsəfəsində daha qabarıq nəzərə çarpsa da, digər xalqların elmi-fəlsəfi prinsiplərinə də hopmuşdur. Təsadüfi deyildir ki, biz təbiətdə baş verən inkişaf proseslərinə bu cür yanaşmaya Nəsrəddin Tusinin “Əxlaqi-Nasir” əsərində, habelə - Şəhabəddin Yəhya Suhrəverdi tərəfindən “İşraqilik” təlimində, eləcə də, digər fəlsəfi baxışlarda, habelə klassiklərin bədii yaradıcılıq nümunələrində rast gəlirik. Maraqlıdır ki, biosferdə gedən maddələr dövranı İ.Nəsimi poeziyasında düzgün əsaslandırılıb. Şair təbiətşünaslığın hələ yaxşı inkşaf etmədiyi orta əsrlərdə ortaya maraqlı suallar qoyur: “Odu su, torpağü yel aldı nədəndir adəm?” Panteist şairin əsərlərində təbiət gözəllikləri tərənnüm edilsə də, onun əsas obyekti insandır. Nəsimi belə hesab edirdi ki, təbiət, yer, göy öz xidmətlərini və dəyərini insandan alır (Yenə orada).

Şairin təbiət görüşlərində abiotik faktor kimi kosmos amillərinə münasibəti də diqqətəlayiqdir:

Günəşin qürsi, nədən yer üzünə şölə verir,
Yenə bir məşəldə nur nədir, nar nədir?

*(Davamı 10-cu səhifədə*

# İMADƏDDİN NƏSİMİNİN ƏDƏBİ YARADICILIĞINDA VƏ FƏLSƏFİ DÜNYAGÖRÜŞÜNDƏ EKOLOJİ MAHİYYƏTLİ FİKİRLƏR

*(Əvvəli 7-ci səhifədə)*

O, bununla Günəş enerjisinin canlıların həyatında faydasını göstərir. Dördlüklərinin birində həyatın dörd ünsürdən yarandığını bildirir:

Dörd sütun üstündə qurulmuş bu can,
Varlıq ölkəsində odur hökmran.

Göründüyü kimi, Nəsiminin poeziyasında ətraf mühitə münasibət (insanın ekologiyası, canlıların təkamülü, həyatın əmələ gəlməsi və təbii sərvətlər haqqında mülahizələr) xüsusi yer tutur. Şair qəzəl və qəsidələrində təbiətdə baş verən fəsil dəyişikliklərini, o cümlədən yazın gəlişi ilə əlaqədar ətraf mühitdə, xüsusilə bitkilərin həyatında canlanmanın müşahidə edildiyini olduqca təbii vermişdir:

Bənövşə oldu, gəl ey dilbər, tamaşa qıl bu gülzarə
Buraxdı qönçələr pərdə, bəşarət bülbülü-zarə.
Şəqayiq pərdədən çıxdı, boylandı bağ ilə bostan,
İrişdi gülşənin hüsnü, boyandı rəngi əzharə.
Çəmənlər müxtəlif oldu, həzar əlvan çiçəklərdən
Açıldı laləvü nəsrin, şükufə gəldi aşarə.
Açıldı nərgisu lalə, tutubdur yasəmən çadır
Söyütlər, ərgəvan titrər, qamışlar mindi ənharə.

Göründüyü kimi, İ.Nəsimi burada diqqəti təbiətin gözəlliklərinə və onun qorunmasına yönəldib. Əgər xatırlasaq, Ş.İ.Xətainin "Dəhnamə"si də bu fonda qələmə alınıb:

Qış getdi, yenə bahar gəldi,
Gül bitdivü laləzar gəldi.
Quşlar qamusu fəfanə düşdü,
Eşq odu yenə bu canə düşdü...
...Çaylar bulandı, yıxdı arxın,
Bağlar ağacı göyərtdi şaxın.
Yüz dürlü əba geyib çəmənlər,
Ağ donunu geydi yasəmənlər....

Şübhə yoxdur ki, Nəsiminin təsiri ədəbiyyata yuxarıdakı şeirilə "Bahariyyə" janrını gətirən görkəmli Azərbaycan şairi Şah İsmayıl Xətaidən yan keçməyib. Əlbəttə, bu ayrı bir mövzudur və mümkün qədər tərəfimizdəm arşdırılıb.

Qeyd etmək lazımdır ki, dahi şair-filosof İmadəddin Nəsimi zamanının yaradıcı şəxslərindən fərqli olaraq, təbiəti tərənnüm edərkən mahiyyətə varır, ondakı gözəlliklərin qədrini bilməyə, onları olduğu kimi duymağa çağırır. Təsadüfi deyildir ki, baharın gəlişini təsvir edən şair ətraf aləmdə baş verən fəsil dəyişkliklərini tamam yeni bir keyfiyyətdə təqdim edir. Başqa sözlə, o, yazın gəlməsi ilə təbiətdə gerçək çanlanma hadisəsini bəşərin - insanın özü ilə bağlayır. Qeyd etmək lazımdır ki, XI əsrin klassik və görkəmli Azərbaycan şairi Qətran Təbrizinin "Divan"ının əsasını təşkil edən mədhnamələrdə də heyranedici təbiət təsvirləri özünə yer tapmışdır. Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan bütün poemalarında, o cümlədən Məhəmməd Fizulinin, Məmmədhüseyn Şəhriyarın, digər klassiklərimizin əsərlərində də təbiət motivləri yetərincə verilmişdir.

XII əsrdə yaşayıb-yaratmış Xaqani Şirvani dəətraf mühitə təsir göstərən abiotik faktorların faydasını yüksək qiymətləndirmiş, günəş enerjisinin təbiətdə baş verən dəyişikliklərdəki rolunu qeyd etmişdir:

Səninlə bəzənir dünya camalı,
Sayəndə dəyişir aləmin halı.
İmadəddin Nəsimi

- başlayan qəzəlində də də yaz-mövsüm hadisələrinin tipik nümunəsi kimi canlılarda baş verən oyanma-fəallaşmahadisəsini o qədər real, o qədər maraqlı verib ki, heyrətlənməmək mümkün deyildir:

Æ æ ,

yaxud:

- Şair burda çiçək tumurcuğunun tədricən açılma prosesini müşahidələri əsasında çox düzgün təsvir edə bilib. Yeri gəlmişkən, Novruz bayramının gəlişinə həsr etdiyi başqa bir qəzəlində də təkrarən bitkilərin həyatında baş verən çiçəklənmə kimi həyati vacib məsələyə toxunub:

Ł ª Æ,

Daha sonra çəmənlik ekosisteminə aid müxtəlif ot bitkilərini sadalyır, həmçinin bəzi ağac və kol bitkilərinin adlarını çəkməklə yanaşı, bənövşənin misalında bitkilərin çiçəklənmə müddətinə də diqqəti cəlb edir.

,

Bu və digər şeirlərindən də göründüyü kimi İ.Nəsiminin yaşadığı tarixi dövrün biomüxtəlifliyi də öz əksini tapıb. Biz buna onun bir sıra qəzəl və qəsidələrində, rübailərində və başqa janrlarda yaratdığı bədii nümunələrdə rast gəlirik; lalə, nərgiz, bənövşə, nar, reyhan, söyüt, ərğəvan, qamış, nəsrin, şükufə, eləcə də səməni (taxıllar fəsiləsinə aid bitkilər nəzərdə tutulur-Y.D.) buna misal ola bilər.

Bu şeir parçasında Nəsimi səhər vaxtı gözəlin üzündə gülab kimi tər damlalarının göründüyünü, bu gözəlliyi görən günəşin də sevincdən oynadığını bildirir. Akademik Həmid Araslı buna əsasən qeyd edir ki, "məşuqə o qədər gözəl və təmizdir ki, onun üzünün şövqündən camalındakı niqab da rəqsə gəlir." Bu, bizə quttasiya hadisəsini xatırladır. Fikrimizcə, İ.Nəsimi təbiətşünas olmasa da belə, praktik müşahidəçi kimi təbiəti doğru mənimsəyib. Ona görə də şeirlərində ekoloji elementlərdən istifadə edərkən elmi səhvə yol verməyib. Əminliklə deyə bilərik ki, səhər tezdən yarpaqların üzərində şeh damlalarının toplanması və mirvari dənəsi kimi Günəş işığında bərq vurması görünür, Nəsiminin diqqətindən qaçmayıb. Ətraf mühitdə baş verən bu cür halların poeziyaya gətirməsi, şübhəsiz, şairin elmi-fəlsəfi dünyagörüşünün bitkin olması ilə bağlı idi.

Şairin yaradıcılığında ətraf mühitə faydalı və zərərli təsir göstərən abiotik amillərin (külək, rütubət, su, torpaq, bitki, heyvan, istilik) adlarına da tez-tez rast gəlirik. Bu, şübhəsiz, şair-filosofun təbiət görüşlərindən xəbər verir. Bir başqa misal: "Dinin günəşi, dünyada imanım əfəndi", - misrası ilə başlanan şeirində üz tutduğu şəxsi qiymətli daşlara bənzətməsi göstərir ki, Nəsimi öz dövrünün faydalı qazıntıları və onların əhəmiyyəti haqqında müəyyən bilgilərə malik imiş.

Yer üzərində həyatın necə və nədən əmələ gəlməsi məsələsi yalnız alimləri düşündürməmiş, həm də filosuflar və din xadimlərii bu problemə nəzər yetirmiş, zaman-zaman ona müxtəlif bucaqdan münasibət bildirilmişdir. Klassiklərimizin yaradıcı-lığında bu, əsas məsələlərdən biri kimi diqqətdən kənarda qalmamışdır. Qeyd etmək yerinə düşər ki, bununla bağlı indiyədək apardığımız çoxsaylı tədqiqatlar göstərir ki, bu problemə yanaşma müxtəlif olduğu qədər də mübahisəli olmuş, ona ikili münasibət göstərilmişdir: elmi və dini yanaşma. Biz bunlara ayrı-ayrı məqalələrdə toxunduğumuzdan, hazırda Nəsiminin ədəbi-fəlsəfi yazılarında filosof-şairin fikirlərindən bir qismini nəzərinizə çatdırmaqla kifayətlənirik: Elmi yanaşmaya görə həyat suda əmələ gəlmişdir. Fikrimizcə, İ.Nəsimi "Dəryayi-mühit" şeiri ilə bu məsələnin həllinə yönəlmişı elmi nəzəriyyəni (XX əsrin əvvəli - Oparin nəzəriyyəsi) altı əsr qabaqlaya bilmişdir. Əlbəttə, bunun mükəmməl olduğu fikrindən uzağıq, ancaq dəyərli şairimiz Həyatın dörd ünsürdən (hava, su, torpaq, istilik) yarandığı faktını özündən öncəki həmfikirləri və həmkarlarının gəldikləri qənaəti çəkinmədən, qətiyyətlə davam və inkişaf etdirmişdir.

Ø .

O, canlıların yaşayışında və inkişafında işıq enerjisinin müstəsna əhəmiyyətini xüsusi qeyd edir. Suda ilk olaraq bitkilərin inkişafının labüd olduğunu deyən Nəsimi bunun üçün əlverişli mühitin yarandığını bildirir. Onun nümünə kimi təqdim etdiyimiz şeirindən bir parça, zənnimizcə, örnək kimi bəs edər:

Filosof-şair mənsub olduğu hürufilik təriqətinə söykənərək İnsanı ali mənsəb sayır. Lakin o dövrdə nə din, nə də elm bunu izah edə bilimridi. Üzvi aləmin təkamülündə də İnsanın son halqa olduğu anlamı Nəsimi yaradıcılığında açıq-aydın hiss olunur. Nəsimiyə görə insanın ali vücud olması Allahın onda təcəlla tapmasıdır. Məhz hürufilikdə İnsanın ən ali məqam halında qəbul edilməsinə də səbəb budur. Haqlı olaraq, şair İnsanı yaradıcısını tanımağı, şeytana uymamağı tövsiyyə edir:

İnsan öz aqibətindən çıxanda, halı dəyişəndə cahanı-dünyanı saymır. O zaman bəşəriyyət bundan ziyan çəkir (hazırda olduğu təki).

Ümumilikdə götürsək, dini-fəlsəfi, sosial-iqtisadi amil kimi İNSAN obyekti hər zaman aktual olmuşdur. Qədim dövrün böyük filosoflarından olan Diogenin günün günorta çağı əlində çıraq İnsan axtarışına çıxması da elə bu səbəbdəndir. Yeri gəlmişkən müasirimiz olmuş böyük Azərbaycan filosofu, "Mütləqə İnam" təliminin yaradıcısı Asif Ata fəlsəfəsinin də son məqsədi Kamil İnsan yetişdirmək idi. Bu cəhətdən o, "Nəimi və Nəsimi ömrümüzün bir hissəsidir" deyir və hürufiləri özlərinə "qohum" hesab edirdi... Maraldır ki, ötən əsrin sonlarında çağdaş dövrün ekoloji problemləri sırasına "İnsan ekologiyası" adlı çox ciddi bir anlayış gətirildi. Mənəviyyatda baş verən və ya mövcud olan deqradasiyalar, eyni zamanda ekoloji mühitə çox ciddi təsir göstərir. Bu problemin öyrənilməsi və tədricən aradan qaldırılması ətraf mühitin sağlamlaşdırılması istiqamətində mühüm rol oynaya bilər. Nəsiminin yaradıcılığında həmin məsələ prioritetdir. Bir nümunəyə baxaq:

Əya, mö'min, gər istərsən səadət,
Özünə peşə qıl daim se adət.

- deyən şair, yaxşı əməllər sahibi olmağı tövsiyə eidr:

İnsanı səadətə qovuşduracaq bu xüsusiyyətlərin hər kəsi səadətə qovuşduracağını düşünən filosof, eyni zamanda bədəməlli-bədniyyətli adamlara mənsub keyfiyyətləri də sadalamaqla sanki onlardan uzaq durmağa çağırır:

O, bütün ömrünü yalnız əzab-əziyyətlə sərvət toplamağa sərf edən şəxslərə bunun mənasız olduğunu, insanın mənəvi kamilləşməsində heç bir əhəmiyyət kəsb etmədiyini vurğulayırdı:

Nəsimi hürufi şairdir və bir hürufi kimi onun alı məqsədi İnsanı yüksək məqamda görməkdir. Odur ki, poeziyasında da İnsanı bir varlıq olaraq hər şeydən üstün tuturdu:

Hürufi görüşlərinə görə dünya maddi və mahiyyəti etibarı ilə iki yerə bölünür: Kainat və İnsan. Birincidünyada ümumilkdə, qalaktika və təbiət; İkincidə isə bütün obyektiv varlıq öz əksini tapır. Başqa sözlə, hürufilər İnsanın daxil aləmində bütün səma cisimlərinin mövcudluğuna inanırdılar. Nəsimi də məhz bu mövqedən çıxış etməklə İnsana ideal qiymət verirdi. Ətraf mühitin müasir və aktual anlayışlarından biri kimi İnsanın bu cür qiymətləndirilməsi, əslində İnsan ekolgiyası kimi vacib bir problemin diqqət mərkəzinə gətirilməsi o dövr üçün olduqca maraqlı, həm də təhlükəli tendensiya idi. Nəzərə alsaq ki, hələ XX əsrin II yarısına qədər İnsan ekologiyasını bir problem kimi